No: 02 2025
https://doi.org/10.64400/ndueej.051
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT
UNİVERSİTETİNİN
ELMİ ƏSƏRLƏR JURNALI

# MÜLKİ PROSESDƏ NÜMAYƏNDƏLİK İNSTİTUTUNUN NƏZƏRİ-HÜQUQİ PROBLEMLƏRİ

**Hüseyn Əsgərov**
https://orcid.org/0009-0000-5245-5582
**Müəssisə: Mingəçevir Dövlət Universiteti, Mingəçevir, Azərbaycan.**
**Yazışılan müəllif: Huseyna28@mail.ru: Tel: +99450-624-25-66,**

## XÜLASƏ

*Mülki prosesdə nümayəndəlik geniş anlayışdır və hüquqi və fiziki şəxslərin mülki hüquq və azadlıqlarının müdafiəsi və yaxud da pozulduğu halda bərpası məqsədilə fəaliyyət qabiliyyətli şəxslər tərəfindən göstərilən yardım və ya sadəcə təmsilçilikdir. Hazırkı məqalədə Azərbaycan Respublikasının hüquq sistemində nümayəndəlik institutuna, xüsusilə də mülki prosesdə nümayəndəlik məsələlərinə xüsusi diqqət ayrılmışdır. Məqalədə mülki prosesdə nümayəndəlik institutunun anlayışı, mülki prosesdə nümayəndələrin fəaliyyəti zamanı meydana çıxan konseptual-hüquqi problemlər və onların həlli yolları ilə bağlı nəzəri məsələlər təhlil edilmişdir. Bu istiqamətdə elmi ədəbiyyatlardakı fikir müxtəlifliyi müqayisəli şəkildə tədqiq edilmiş, bəzi təkliflər də irəli sürülmüşdür. Mülki prosesdə nümayəndəlik institutu öz tarixi inkişaf tendensiyasına malik olan və özündə maddi və prosessual hüquq normalarını təcəssüm etdirən kompleks hüquq institutudur. Bu hüquq institutu subyektin obyektiv səbəblərdən müstəqil şəkildə məhkəmədə çıxış edə bilməməsi səbəblərindən meydana çıxmışdır. Nümayəndəlik institutu hüquqların real və tam həyata keçməsinin və hüququn subyektləri tərəfindən vəzifələrin icra edilməsinin əhəmiyyətli zamanətlərindən biri kimi çıxış edir. Nümayəndəlik subyektiv hüquqların və vəzifələrin əldə edilməsi və realizəsi imkanlarını genişləndirir və yüngülləşdirir, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli vətəndaşlar üçün isə müvafiq hüquq münasibətlərində iştirakın bəzən yeganə əsası qismində çıxış edir. Prosessual nümayəndəliyin inkişaf tendensiyaları o haqda nəticə çıxarmağa imkan verir ki, nümayəndəlik institutu ona olan tələbatın artması səbəbindən daim yüksələn xətlə inkişaf etmişdir.*

**Açar sözlər:** *mülki proses, nümayəndə, məhkəmə, konsepsiya, doktrina.*

**Nümayəndəlik fəaliyyətinin anlayışı.** İnsanlar məhkəmədə öz işlərini şəxsən və ya nümayəndələri vasitəsilə apara bilərlər. Fəaliyyət qabiliyyəti olmayan, yetkinlik yaşına çatmayan, azyaşlı şəxslərin işlərini onların qanuni nümayəndələri, qəyyumlar və himayəçilər aparır. Hüquqi şəxslərin işlərini isə onlara qanunla, nizamnamə ilə və ya təsis sənədi ilə verilmiş səlahiyyətlərin daxilində hərəkət edən nümayəndələri həyata keçirir.

Müxtəlif səbəblərə görə vətəndaşlar bəzən məhkəmə iclasında ola bilmirlər, məsələn sağlamlıq vəziyyətinə görə, məzuniyyətlə əlaqədar, xəstəxanaya yerləşdirmə, ezamiyyətdə olma, məhkəmənin yerləşdiyi yerin şəxsin yaşayış yerindən uzaqlığı və s. Bəzən isə sadəcə iştirak etməmə istəyi, məsələn: "əks tərəflə" qarşılaşmamaq səbəbi ilə bağlı ola bilər. Nəhayət, insanlar ixtisaslı hüquqi yardıma ehtiyac duyur, buna görə qanun vətəndaşlara nümayəndələr vasitəsilə məhkəmədə öz işlərini aparmağa imkan verir. Hətta şəxs özü işdə şəxsən iştirak etsə belə, bu bu iş üzrə nümayəndəyə malik olmaq hüququndan məhrum etmir.

Məhkəmə nümayəndələri onlara verilən səlahiyyətlər daxilində təmsil etdiyi şəxs üçün daha əlverişli şəraitin yaradılmasına çalışan, ona zəruri hüquqi yardım göstərməli olan şəxsidir. Paralel olaraq, nümayəndənin iştirakı məhkəmədə ədalət mühakiməsinin həyata keçirilməsinə də müsbət mənada öz təsirini göstərir[4, 49].

**Nümayəndəlik institutu ilə bağlı doktrinal yanaşmalar**. Mülki hüquq sferasında nüfuzlu mütəxəssislərdən hesab edilən professor Rik Verhagen mülki prosesdə nümayəndənin statusu ilə bağlı məsələdə onun səlahiyyətinin yaranması meyarını əsas götürür. Məhz bu səbəbdən nümayəndəlik qanuni (normativ hüquqi akt əsasında yaranır) və könüllü (əqd və ya etibarnamə əsasında yaranır) ola bilir[6, 6]. Belə bölgü əsasən kontinental hüquq sisteminə malik dövlətlər üçün xasdır.

Mauro Kappelletti qeyd edir ki, mülki prosesdə azyaşlılar, fəaliyyət qabiliyyəti olmayanlar, aztəminatlılar qanuni nümayəndələrlə təmsil olunurlar ki, həmin nümayəndələr qismində adətən vəkillər çıxış edir[5, 119].

Məşhur Britaniya hüquq alimi, Oksford universitetinin mülki proses üzrə professoru Adrian.S.Zuckerman hesab edir ki, ümumi hüquq sistemli ölkələrdən fərqli olaraq, kontinental hüquq sistemində mülki prosesdə nümayəndənin iştirakı arzuolunandır. Bunun əsas səbəbi mülki prosesin çəkişmə prinsipi əsasında aparılması və məhkəməyə bu prosesdə tam neytral mövqeyin tutulması imkanını verilməsi ilə bağlıdır. Anqlo-amerikan sistemindən fərqli olaraq, bu sistemə malik ölkələrdə prosedur qaydaların çoxluğu, normativ aktların fərqliliyi, prosessual qaydaların yazılı şəkildə aparılması və s. rəsmiliklər insanlara məhkəmə prosesində özünü müdafiə etmə qabiliyyətini azaltmağa gətirib çıxarır, yəni bütün bunların mövcudluğu zəruri hüquqi bilikləri olmayan şəxsin mülki prosesdə asanlıqla uduzacağına işarə edir[7, 357-361].

Xarici ölkələrin alimləri ilə yanaşı, mülki prosesdə nümayəndəlik institutu ilə bağlı yerli müəlliflərin də maraqlı fikirlər var. Professor Ə.İ.Əliyev nümayəndəlik institutunu həm beynəlxalq, həm də dövlətdaxili kontekstdə təhlil edərək qeyd edir ki, ədalət mühakiməsinin əsas ünsürlərindən biri kimi müdafiəçinin köməyindən istifadə etmək hüququnun başlıca məqsədi tərəflərin real (həqiqi) bərabərliyinə təminat verməkdir[1, 415]. Göründüyü kimi, müəllif çəkişmə prinsipinin realizəsini əsas götürmüşdür.

M.Mövsümov hesab edir ki, məhkəmədə nümayəndəlik mülki prosesdə məhkəmə və nümayəndə arasında təşəkkül tapan münasibətləri tənzimləyən mülki prosessual hüquq normalarının məcmusudur. Məhkəmədə nümayəndəlik hüquq münasibətidir və ona verilən hüquq çərçivəsində təmsil etdiyi şəxsin adından prosessual hərəkətləri etməkdən ibarətdir. Nümayəndənin prosessual hərəkətləri təmsil etdiyi şəxs üçün prosessual nəticələr yaradır: hüquq və vəzifələr[2, 92].

İndi isə nümayəndəlik institutuna milli qanunvericiliyimizdə verilən anlayış, ümumiyyətlə nümayəndəliyin Azərbaycan hüquq sistemində yeri və əhəmiyyəti ilə bağlı məsələlərə baxaq. Azərbaycan Respublikasının (AR) mülki prosessual qanunvericiliyində, konkret desək AR MPM-də yeddi maddədən ibarət ayrıca VI fəsil həsr olunmuşdur. Bu fəsildə nümayəndə kimi çıxış edə bilən şəxslərin dairəsi, nümayəndələrin səlahiyyətləri, növləri və nümayəndəliyə xitam verilməsi kimi məsələlər hüquqi tənzimlənir. AR MPM məhkəmədə mülki işin aparılması üçün səlahiyyəti lazımi qaydada rəsmiləşdirilmiş hər hansı fəaliyyət qabiliyyətli şəxsi nümayəndə kimi tanıyır (md. 71)[8]. Bundan əlavə, AR MPM-n 66-70-ci maddələri və Vəkillər və vəkillik fəaliyyəti haqqında Qanunun sistemli təhlili göstərir ki, hər bir vəkil məhkəmədə nümayəndə qismində iştirak edə bilər.

**Nümayəndəlik fəaliyyətində nəzəri problemlər**. İşdə iştirak edən şəxsə məhkəmə nümayəndəsi xidmətlərindən istifadə etmək imkanı verməklə, qanunverici iş üzrə məhkəmə nümayəndələrinin lazımi miqdarının təyini məsələsində konkret say və ya miqdar müəyyən etmir. Bu nəticə AR MPM-in 69-cu maddəsinin normalarının analizindən meydana çıxır. Göründüyü kimi, bu maddə məhkəmə tərəfindən baxılanın prosessual işlərdə tərəfləri təmsil edən məhkəmə nümayəndələrinin konkret sayını müəyyən etmir.

Ancaq məhkəmə nümayəndələrinin konkret sayı haqqında məsələnin həlli vaxtı vəkalət verən şəxs hər şeydən əvvəl, ümumhüquqi prinsip və başlanğıcları, həmçinin qüvvədə olan qanunvericilikdə hüquqların həyata keçirilməsinin təyin edilmiş ağlabatan hüdudlarını rəhbər tutmalıdır.

Qüvvədə olan mülki prosessual qanunvericiliyin (AR MPM-in VI fəsli) normalarının təhlilindən görünür ki, məhkəmələrdə baxılan mülki işlər üzrə məhkəmə nümayəndəsi kimi istənilən tam fəaliyyət qabiliyyətli şəxs çıxış edə bilməz, həmin şəxslərin konkret dairəsi müəyyən olunur.

Eyni zamanda, nümayəndə ola bilməyən şəxslərin də dairəsi müəyyən edilmişdir. Həmin istisnalar AR MPM-in 71-ci maddəsində təsbit edilmişdir.

Göründüyü kimi, bu qadağa hakimiyyət orqanının maraqlarının həyata keçirilməsi ilə bağlı hadisələrə şamil edilmir. Müqavilə nümayəndəsi kimi məhkəmə prosesində bu şəxslərin iştirakına qadağa qoyulması, ilk növbədə onunla şərtlənir ki, dövlət, hər bir konkret işə baxılması vaxtı məhkəmənin müstəqilliyini təmin etməyə çalışır. Göstərilən subyektlərin işdə iştirakı iş üzrə prosessual tərəflərdən birinin hakimiyyət tərəfindən dəstəyi kimi qiymətləndirilə bilər.

Azərbaycanın müasir prosessual hüququ, hüquq tətbiqi təcrübəsi nümayəndəlik institutunun tez-tez bir sıra praktiki problemlərinin həlli zərurəti məsələsinə müraciət etməyə əsas verir. Respublikamızın hüquq doktrinasında nümayəndəlik institutu ilə bağlı ayrıca araşdırmalar aparılmasa da, ayrı-ayrı alimlərin (B.Əsədov, Ə.Hüseynov, B.Kərimli, M.Mövsümov və s.) əsərlərində bu instituta dair problemlərə ümumilikdə mülki prosessual hüquq çərçivəsində baxılmışdır. Ancaq belə səylərə baxmayaraq, bu gün mülki prosessual hüquq sahəsində həll edilməyən bir sıra kifayət qədər ciddi məsələlər mövcuddur. Bu paraqrafda müasir Azərbaycan mülki prosesində nümayəndəlik institutunun realizəsi zamanı mövcud olan problemləri tədqiq etməyə çalışmışıq.

Hesab edirik ki, bu sahədə mövcud problemlərdən ən birincisi məhkəmə nümayəndəliyi xidmətlərini göstərilməsi üzrə fəaliyyəti həyata keçirən şəxslərin (vəkillər istisna olmaqla) kifayət qədər bilik və bacarıqlarının olmaması ilə bağlıdır. Bu problem, şübhəsiz, son dərəcə aktualdır. Məhkəmə nümayəndəliyi xidmətlərini göstərən şəxslərin kifayət etməyən ixtisası problemi böyük miqyaslara malikdir. Təcrübə göstərir ki, peşəkar hüquqşünas kadrlarının hazırlığının müasir sistemi faktiki olaraq prosessual hüquq sahəsində yaxşı mütəxəssislərin cəmiyyətə təqdim edilməsində bacarıqlı deyil. Belə mövqe maarifləndirici xidmətlərin həyata keçirilməsi sahəsində sistematik təhqiqatlarla dolayısılə təsdiq edilir. Tez-tez hüquq sahəsində diplomlu mütəxəssis statusunu əldə edən şəxs həm konkret işəgötürənin tələblərinə cavab vermir, həm də bütövlükdə əmək bazarında rəqabətə davam gətirmir. Gənc mütəxəssis, bir qayda olaraq, əmək fəaliyyəti prosesində müstəqil, nəzarətsiz formalaşır və beləcə həmin mütəxəssisin özünəməxsus hüquq tətbiqi təcrübəsi yaranır.

Belə vəziyyətin yaranmasının səbəbi, bizim fikrimizcə, müxtəlif amillərin məcmusu ilə bağlıdır. Burada təhsil və maliyyə səbəbləri var. Təhsillə bağlı əsas səbəblər odur ki, ali təhsil müəssisələrində praktiki məşğələlərə, hüquq tətbiqi ilə bağlı təcrübi məsələlərə çox az yer ayrılır. Bundan əlavə, nüfuzlu hakimlərin təcrübi fəaliyyətini əks etdirən nəşrlər də minimum səviyyədədir. Maliyyə problemi dedikdə, gəc hüquqşünasların məhkəmə, vəkillik, dövlət orqanları ilə müqayisədə əsasən yüksək gəlirli özəl sektora üz tutması nəzərdə tutulur.

Düzdür, gənc hüquqşünasların arasında (hüquq stajının müddəti nöqteyi-nəzərindən) həqiqətən ixtisaslaşmış mütəxəssislərə də rast gəlinir, ancaq onlar heç də ümumi hüquqşünaslar kütləsində böyük əksəriyyəti təşkil etmirlər. Bütün bunlar xüsusi halda etibar edənin hüquqlarının lazımi səviyyədə, keyfiyyətlə müdafiə edilməməsinə gətirib çıxarırsa, ümumilikdə məhkəmə prosesinin gedişatında çoxsaylı nöqsanlara, ləngimələrə yol açır.

Məhkəmə nümayəndəliyi xidmətlərini göstərən şəxsin rəqabət qabiliyyətinin olmaması qeyd etdiyimiz kimi, təkcə təmsil edilən üçün yox, ümumilikdə mülki proses üçün neqativ nəticələr doğurur. Ən əsası da AR mülki prosessual qanunvericiliyinin əsas məqsədlərinin effektiv şəkildə realizəsi məsələsi sual altında qalır. AR MPM-ə əsasən mülki prosesin əsas hədəfi qanunçuluq və ictimai qaydanın qorunub saxlanmasıdır[8]. Bu məqsədə xidmət edən başlıca amillərdən biri də nümayəndəlik institutudur.

Müəyyən hallarda məhkəmə nümayəndəsinin nisbətən zəif bacarıq səviyyəsi vəkalət verən üçün bir sıra son dərəcə mənfi nəticələrin yaranması üçün əlverişli şərait yaradır. Azərbaycanın hüquq aləminin reallığı nümayəndəni təkcə vasitəçi kimi yox, həmçinin hüquq müdafiəçisi kimi qiymətləndirməyə əsas verir. Bu və ya başqa səbəblərə görə peşəkar hazırlığı aşağı səviyyədə olan məhkəmə nümayəndəsinə müraciət etmiş vəkalət verənin belə şəraitdə öz maraqlarının effektiv şəkildə müdafiəsi və ya pozulmuş hüquqlarının bərpası praktik olaraq mümkün hesab edilmir. Onlardan ən neqativləri növbəti formalarda ifadə edilə bilər: təqdim edilmiş tələblərin təmin olunmasından tam və ya qismən imtina; maddi hüququn müdafiəsi hüququndan məhrum edilmə;

qarşıya qoyulmuş məqsədə həddindən artıq gec vaxtda nail olunması və ya gərəksiz vaxt itkisi; məhkəmə xərclərinin artımı və s.

Müasir dövrdə rəqabət qabiliyyəti zəif olan vəkillərə müraciətin bir çox səbəbləri var ki, onlardan ən əsası, həmin kateqoriya şəxslərin göstərdiyi xidmətlərin ucuz (yəni, maddi baxımdan) olmasıdır. Eyni növ xidməti digər vəkillər bir qədər baha qiymətə realizə etdiyindən insanlar bu kateqoriya nümayəndələrə üz tutmağa üstünlük verirlər. Nəticə isə hər zaman ürəkaçan olmur.

Hər kəsin ədalət mühakiməsinə bərabər şəkildə çıxışı və hüquqi yardımdan istifadə hüququ konstitusion səviyyədə təmin edilmişdir. Yəni hər kəs öz hüquqlarının müdafiəsində sərbəstdir, seçim hüququna malikdir. Lakin belə sərbəstlik, azadlıq neqativ hallara da yol açır[3, s.224]. Göründüyü kimi, qanunverici bu məsələdə konkret müdafiə mexanizmləri müəyyən etmir. Bu isə artıq qeyd etdiyimiz kimi həm ümumi, həmçinin xüsusi xarakterli problemlər yaradır.

**Nəticə.** Nümayəndəlik institutu praktiki olaraq hüququn bütün sahələrində mövcuddur. Mülki prosesdə nümayəndəlik institutu fiziki və hüquqi şəxslərin hüquqlarının və qanuni maraqlarının məhkəmədə müdafiəsinin vacib konstitusion təminatıdır. Hüququn bu institutu ümumi anlamda bir şəxsin digər şəxsin adından, onun maraqları naminə, onun tapşırığı ilə həmin şəxsə qanunla verilən səlahiyyətlər çərçivəsində prosessual hərəkətləri icra etdiyi, eyni zamanda təmsil olunan şəxsə münasibətdə müəyyən hüquq və vəzifələr yaradan hüquq münasibətidir.

Mülki prosesdə nümayəndəlik geniş anlayışdır və hüquqi və fiziki şəxslərin mülki hüquq və azadlıqlarının müdafiəsi və yaxud da pozulduğu halda bərpası məqsədilə fəaliyyət qabiliyyətli şəxslər tərəfindən göstərilən hüquqi yardımdır. Mülki prosesdə nümayəndəlik institutunun əsas məqsədi fiziki və hüquqi şəxslərin hüquq və qanuni maraqlarının tam şəkildə təmin edilməsinə nail olmaqdır.

Nümayəndəlik institutu AR Konstitusiyasında təsbit olunan insan və vətəndaş hüquq və azadlıqlarının təmin edilməsi mexanizminin əsas ünsürü qismində çıxış etməklə hüquqi yardım fəaliyyətini özündə təcəssüm etdirir. Hüquqi yardım almaq bir qayda olaraq şəxsi hüquq və azadlıqların prosessual təminatlarını ehtiva etməklə özündə hüquq və maraqların müdafiəsində ifadə olunan prosessual-hüquqi cəhətləri birləşdirir. Bu baxımdan hüquqi yardım almaq hüququ AR Konstitusiyasında təsbit olunmuş digər prosessual xarakterli hüquqlarla qarşılıqlı əlaqədədir və onların həyata keçirilməsini təmin edir.

**Təkliflər.** Nümayəndəlik mülki prosesin sistemyaradıcı elementidir. Məhz nümayəndənin vəziyyətindən bir çox hallarda mülki prosesin bu və ya digər sistemə aid edilməsi asılıdır. Prosessual nümayəndəni işdə iştirak edən şəxslərə aid etmək lazımdır, çünki o prosesdə müstəqil hüquqi marağa malikdir, öz iradəsini ifadə edir və müəyyən hüquqlar və vəzifələrlə təmin olunmuşdur. Mülki prosesdə iştirak edən nümayəndənin və vəkalət verənin məsuliyyətinin müəyyən edilməsi fərdi qaydada həyata keçirilməli, analoji olaraq təqsir, niyyət və səbəb-nəticə əlaqəsi müəyyən edilməlidir. Nümayəndənin məsuliyyətə cəlb edilməsi vəkalət verənin də məsuliyyətinə səbəb olmamalı və əksinə.

İctimai münasibətlərin yüksək inkişaf etməsi, həmçinin ədalət mühakiməsinin həyata keçirilməsi şəraitində tədqiq edilən fəaliyyətin tənzimlənməsi sahəsində daha konkret, differensiasiyalaşmış yanaşmalar tələb olunur. Təklif edirik ki, belə bir vəziyyətdə nümayəndəlik institutuna əsas yanaşma meyarı kimi peşəkarlıq meyarı əsas götürülməlidir. Düzdür, 2018-ci ilin yanvarın 1-dən məhkəmələrdə nümayəndəlik fəaliyyətini əsasən vəkillər həyata keçirsə də, hüquqi şəxslərin, yaxın qohumların məhkəmədə nümayəndəlik fəaliyyətinə toxunulmamışdır. Bu isə qeyri-peşəkarların məhkəmə prosesinə yenidən daxil olmasına şərait yaradır. Bu səbəbdən təklif edirik ki, məhkəmə proseslərində yalnız prosessual sferada bilik və bacarığı olan şəxslər iştirak etməlidir. Belə olduqda vətəndaşların da, öz hüquqlarının qorunmasında, pozulduğu halda bərpası məsələsində əminlikləri daha çox olar. Eyni zamanda, çəkişmə prinsipinin də effektiv şəkildə realizəsinə imkan yaranır.

**Ədəbiyyat siyahısı:**


1. Əliyev Ə.İ. İnsan hüquqları. Dərslik. Bakı, Hüquq Ədəbiyyatı Nəşriyyatı, 2013, 506 s.

2. Mövsümov M. Mülki prosessual hüquq. Dərslik. Bakı, Qanun Nəşriyyatı, 2011, 416 s.
3. Женетль, С.З. Гражданский процесс. Учебник / С.З.Женетль, А.В.Никифоров, – М.: РИОР, Инфра-М, – 2018. – 416 с.
4. Треушникова М.К. Практикум по гражданскому процессу. М., Городец, 2007, 320 с.
5. Cappelletti Mauro. Civil Procedure in Italy. Springer, 2013, 451 p.
6. Verhagen H.L.E. Agency in Private International Law, the Hague Convention on the Law Applicable to Agency. Dordrecht: Martinus Nijhoff Publishers in cooperation with the T.M.C. / Asser Instituut, The Hague, 1995, 431 p.
7. Zuckerman Adrian. No Justice Without Lawyers — The Myth of an Inquisitorial Solution. Oxford Legal Studies Research Paper 66/2014, 355-374 p.
8. http://e-qanun.az/code/9

## SUMMARY

## THEORETICAL AND LEGAL PROBLEMS OF THE INSTITUTION OF REPRESENTATİON İN CIVIL PROCEEDINGS

**Asgarov Huseyn Vilayat**
**Doctor of Philosophy in Law, Senior Lecturer of the Department of Humanities, Mingachevir State University**
**Tel: 050-624-25-66, Huseyna28@mail.ru**

Representation in civil process is a broad concept and is assistance or simply representation provided by capable persons in order to protect the civil rights and freedoms of legal entities and individuals or restore them in case of violation. The article pays special attention to the institution of representation in the legal system of the Republic of Azerbaijan, in particular, to issues of representation in civil proceedings. The article analyzes the concept of the institution of representation in civil proceedings, conceptual and legal problems arising in the course of the activities of representatives in civil proceedings, as well as theoretical issues related to their solution. A comparative study of the diversity of opinions in the scientific literature on this topic is made and some proposals are put forward/

The institution of representation in civil proceedings is a complex legal institution with its own historical development trend and embodying substantive and procedural legal norms. This legal institution arose due to the fact that the subject cannot appear in court independently for objective reasons. The institution of representation is one of the important guarantees of the real and full implementation of rights and performance of duties by legal entities. Representation expands and facilitates the acquisition and implementation of subjective rights and duties, and sometimes acts as the only basis for participation in the relevant legal relations for incapacitated or partially incapacitated citizens.

The development trends of procedural representation allow us to conclude that the institution of representation is constantly developing in an increasing direction due to the growing need for it.

**Key words:** *civil procedure, representative, court, concept, doctrine.*

## РЕЗЮМЕ

**Аскеров Гусейн Вилаят оглы**
**Доктор философии права, старший преподаватель кафедры гуманитарных наук,**
**Мингечевирский Государственный Университет**
**Тел: 050-624-25-66, Huseyna28@mail.ru**

## ТЕОРЕТИКО-ПРАВОВЫЕ ПРОБЛЕМЫ ИНСТИТУТА ПРЕДСТАВИТЕЛЬСТВА В ГРАЖДАНСКОМ ПРОЦЕССЕ

Представительство в гражданском процессе широкое понятие и представляет собой содействие или просто представительство, оказываемое дееспособными лицами в целях защиты гражданских прав и свобод юридических и физических лиц или восстановления их в случае нарушения. В статье особое внимание уделяется институту представительства в правовой системе Азербайджанской Республики, в частности вопросам представительства в гражданском процессе. В статье анализируются понятие института представительства в гражданском процессе, концептуальные и правовые проблемы, возникающие в ходе деятельности представителей в гражданском судопроизводстве, а также теоретические вопросы, связанные с их решением. Сравнительно изучено многообразие мнений в научной литературе по этому направлению и выдвинуты некоторые предложения.

Институт представительства в гражданском процессе представляет собой сложный правовой институт, имеющий свою историческую тенденцию развития и воплощающий в себе материальные и процессуальные правовые нормы. Данный правовой институт возник в связи с тем, что субъект не может самостоятельно явиться в суд по объективным причинам. Институт представительства выступает одной из важных гарантий реальной и полной реализации прав и исполнения обязанностей субъектами права. Представительство расширяет и облегчает приобретение и реализацию субъективных прав и обязанностей, а порой выступает единственным основанием участия в соответствующих правоотношениях для недееспособных или ограниченно дееспособных граждан.

Тенденции развития процессуального представительства позволяют сделать вывод о том, что институт представительства постоянно развивается в нарастающем направлении в связи с возрастающей потребностью в нем.

**Ключевые слова:** *гражданский процесс, представитель, суд, концепция, доктрина.*